# MÜŞFİQ BORÇALI - 55

*Ardıcıl təkrar olunan rəqəmlər güzgü effektli və ya aynalı xoş-bəxt rəqəmlər adlanır...*

*55 rəqəminin vibrasiyası isə alim və tədqiqatçıların xeyrinə olan dərin qavrayışdır. Psixika səviyyəsində səbr və harmoniya deməkdir. Bu harmoniyada ehtiras, maraq, müstəqillik kimi gö-zəl keyfiyyətlərin uyğunluğu, ardıcıllığı və düzülüşu yerləşir...*

*Yaradıcı insanların mənəvi dayağı, dəyərli və hörmətli ziya-lımiz MÜŞFİQ müəllim 55 illik aynalı yubileyiniz mübarək...*

## MÜBARƏK...

Yolu nurlu, ziyalı
Ayı, günü mənalı
Rəqəmləri aynalı
Yeni yaşın mübarək.

Xoş ovqatlı, amallı,
Ömrü məğrur zamanlı,
Hər an aqil kamallı
Uca başın mübarək.

Həyatı gözəl çağlı,
Bəhrəli, bağça-bağlı,
Xalqının sadiq oğlu
Mətin işin mübarək.

Millətin xoş səsində,
Ən şirin nəğməsində,
Müdriklik zirvəsində
Qoşa beşin mübarək...



*Xıdır XIDIROV,*
*Borçalı mahalı, Başkeçid rayonu, Yuxarı Orzuman kənd orta məktəbinin sabiq direkru,*
*Əməkdar müəllim*